Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Publik Hüquqi Şəxsi

Təsdiq edirəm:

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru

____________ professor Ceyran Mahmudova

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN İşə Qəbul Komissiyası haqqında ƏSASNAMƏ

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının

«31» yanvar 2025-ci il tarixli

iclasının 07 № protokolu ilə təsdiq edilib

BAKI – 2025

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN

## İşə Qəbul Komissiyası haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin İşə Qəbul Komissiyası (bundan sonra Komissiya) ) Universitetdə kadr siyasətinin şəffaf, obyektiv və ədalətli şəkildə həyata keçirilməsini təmin edir.

1.2. Komissiya öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə, təhsil sahəsini tənzimləyən normativ hüquqi aktlara, ADMİU-nun daxili normativ sənədlərinə və bu Əsasnaməyə uyğun olaraq həyata keçirir.

1.3. Komissiyanın üzvləri müvafiq strukturların əməkdaşlarından müəyyənləşdirilir.

1.4. Komissiyanın tərkibi ADMİU-nun Elmi Şurasının qərarı ilə təsdiq edilir və rektorun əmri ilə rəsmiləşdirilir. Komissiyanın işinə rəhbərliyin göstərişi əsasında sahə üzrə mütəxəssislər cəlb oluna bilər.

1.5. Akademik heyət üzrə vakant vəzifələrə ilk dəfə daxili resurslar hesabına və ya kənardan mütəxəssislər cəlb edildikdə, namizədlər Komissiyada dəyərləndirilir. Eyni mütəxəssisin akademik heyət üzrə vakant vəzifəyə təkrar cəlb edilməsi kafedra müdirinin təqdimatı əsasında müvafiq fakültə və struktur bölmələrində razılaşdırıldıqdan sonra rektora təqdim olunur.

1.6. Seçkili vəzifələrin müsabiqə yolu ilə tutulması Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə"yə və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na uyğun həyata keçirilir.

1.7. Komissiya üzvlərinin dəyərləndirməsindən sonra yekun nəticələr əsasında inzibati heyət üzrə yaranmış vakant vəzifəyə namizədin uyğun olub-olmaması müəyyən edilir. Komissiyadan müsbət rəy alan və müvafiq vakant vəzifəyə uyğun hesab edilən namizədin sənədləri rəhbərliyə təqdim olunur.

1.8. Namizədin işə qəbulu haqqında yekun qərar ADMİU-nun rektoru tərəfindən verilir.

## 2. Məqsədi

2.1. İşə qəbul Komissiyasının məqsədi ADMİU-da akademik və inzibati heyət üzrə vakant vəzifələrə işə qəbul prosesinin keyfiyyətli və institusional standartlara uyğun şəkildə həyata keçirilməsini təmin etməkdir.

2.2. Komissiya ADMİU-da vakant vəzifələr üzrə namizədlərin peşəkar bilik və bacarıqlarını, kompetensiyalarını və uyğunluğunu qiymətləndirir, şəffaflıq, obyektivlik və ədalət prinsiplərinə əsaslanaraq ali təhsilin keyfiyyətinin yüksəldilməsinə və insan resurslarının səmərəli formalaşdırılmasına xidmət edir.

## 3. Səlahiyyəti

3.1. ADMİU-nun Strateji İnkişaf Planına uyğun olaraq kadrların seçilib yerləşdirilməsinə, müsabiqələrdə iştirakına, elmi adların və vəzifələrin verilməsinə tövsiyələr verir.

3.2. Komissiya öz işini bu və ya digər vəzifəyə uyğun namizədlərin sənədləri ilə tanış olmaq, onlarla fərdi qaydada görüşmək, müsahibə aparmaq vasitəsilə həyata keçirir.

3.3. Komissiya namizədin vakant olan vəzifəyə uyğun olub-olmaması, eləcə də namizədlər iki və daha çox olduqda onlardan hansının daha uyğun olması haqqında səsvermə yolu ilə rəy verir.

3.4. Komissiyanın müvafiq qərarına əsasən səsvermə gizli və ya açıq qaydada keçirilir.

## 4. Məsuliyyəti

4.1. Namizədin bütün dəyərləndirmə mərhələlərində obyektivlik və ədalət prinsirlərinə riayət etmək.

4.2. Komissiyada görülən işlər, aparılan müzakirələr, namizədlər haqqında məlumatlar məxfi saxlanılır, onların yayılması Komissiya üzvünün etik qaydaları və əmək intizamını kobud şəkildə pozması hesab edilir.